UOT 371

***Hilal Kiliç Turgut qızı Akar***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Slavyan Universiteti*

# MƏKTƏBƏ HAZIRLIQ QRUPLARINDA UŞAQLARIN SOSİAL-MƏNƏVİ TƏRBİYƏSİ

***Хилал Кылындж Тургут гызы Акар***
*докторант по программе доктора философии*
*Бакинский Славянский Университет*

# СОЦИАЛЬНО-НРАВСТВЕННОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ В ГРУППАХ ПОДГОТОВКИ К ШКОЛЕ

***Hilal Kiliç Turgut Akar***
*doctorial student in the program of doctor of philosophy*
*Baku Slavic University*

# SOCIAL AND SPIRITUAL EDUCATION IN CHILDREN IN PREPARATION GROUPS FOR SCHOOL

**Xülasə.** Məktəbə hazırlıq mərhələsində təhsil müəssisələrində uşaq şəxsiyyətinin sosiallaşmasının və bu əsasda sosial tərbiyəsinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq qruplarında uşaqlar kollektiv birgə yaşayışa alışır, bir – birilə ünsiyyət və münasibətdə olur, bütün bunlar da uşaqların tədricən təbii yolla sosial- mənəvi cəhətdən formalaşdırır və onlarda sosial düşüncə və etik mədəni davranışlar formalaşır.

Məktəbə hazırlıq mərhələsində uşaqların sosial - əxlaq tərbiyəsi nəticəsində onlarda yoldaşlıq və dostluq keyfiyyətləri yaranır, onlar üçün səy etmək, birgə sosial fəaliyyətdə olmaq, ümumi məqsəd üçün çalışmaq, ehtiyacı olana yardım göstərmək, əmək və oyun zamanı ilkin formada olsa da, vəzifə, borc hissləri formalaşır.

***Açar sözlər:*** *Məktəbə hazırlıq, sosiallaşma, ünsiyyət, oyun*

**Резюме.** На этапе подготовки к школе образовательные учреждения имеют свои особенности социализации личности ребенка и на этой основе проводиться социальное воспитание детей. В группах дошкольного образования дети привыкают к сосуществованию, общению и взаимодействию друг с другом, и все это постепенно формирует социализацию детей и воспитывает социально-духовные ценности. В процессе социализации детей в них формируются социальное мышление и этическое культурное поведение. На этапе подготовки к школе в результате социально-нравственного воспитания у детей вырабатываются качества товарищества и дружбы, стремление находиться в совместной общественной деятельности, работать ради общей цели, оказывать помощь нуждающимся.

***Ключевые слова:*** *подготовка к школе, социализация, общение, игра*

**Summary**. At the stage of preparation for school, educational institutions have their own characteristics of socialization of the child's personality and on this basis, social education of children is carried out. In preschool education groups, children get used to coexistence, communication and interaction with each other, and all this gradually forms the socialization of children and fosters social and spiritual values. In the process of socialization of children, social thinking and ethical cultural behavior are formed in them. At the stage of preparation for school, as a result of social and moral education, children develop the qualities of camaraderie and friendship, strive for them, be in joint social activities, work for a common goal, and provide the first. help and assistance to those in need.

***Key words:*** *Preparing for school, socialization, communication, play*

Məktəbə hazırlıq mərhələsində təhsil mü-əssisələrində uşaq şəxsiyyətinin sosiallaşmasının və bu əsasda sosial tərbiyəsinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" (2007-2010-cu illər) 12 aprel 2007-ci il tarixli sərəncamında məktəbəqədər təhsilin qarşısında mühüm vəzifələr qoyulmuş və xüsusilə məktəbə hazırlıq qruplarında uşaqların sosiallaşmasına, onların sosial – mənəvi tərbiyəsinə diqqət verilmiş və bu əsasda milli kurikulumların hazırlanması tələbi irəli sürülmüşdür. Bu mühüm sənəddə deyilir: "Məktəbə hazırlıq baxımından uşaqların fiziki, sosial-mənəvi, estetik və psixoloji inkişafı, dərketmə və nitq qabiliyyətinin yüksəldilməsi üzrə əsas tələbləri özündə ehtiva edən, həmçinin pedaqoji prosesin humanistləşməsini nəzərdə tutan məktəbəqədər təhsil üzrə milli kurrikulumun hazırlanması və müvafiq qaydada təsdiq olunması" həyata keçirilməlidir (1).

Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq qruplarında uşaqlar kollektiv birgə yaşayışa alışırlar. Onlar bilirlər ki, burada onlar tək deyillər. Onları əhatə edən həmyaşıdları, müəllimlər, yaşlı insanlar var. Gündəlik olaraq onlarla ünsiyyət və münasibətdə olmaq lazımdır. Uşaqlar fəaliyyət zamanı dərk edirlər ki, buradakı oyuncaqlar yalnız onun özü üçün deyildir, oyuncaqlar hamıya məxsusdur. Oyuncaqlardan səliqəli istifadə etməli, onları qorumalı və başqaları ilə paylaşmaq lazımdır. Bütün bunlar isə uşaqları tədricən təbii yolla sosial- mənəvi cəhətdən formalaşdırır. Uşaqlar bu müəssisədə öyrənirlər ki, burada kollektiv oynamaq, çalışmaq lazımdır. Artıq onlar bilirlər ki, qrupda hamı bərabər hüquqa malikdir. Qaydalar hamı üçün eynidir. Onlar "Qrupda mən tək deyiləm", "Qrupda çox uşaq var, mən də onlardan biriyəm" və s. fikirləri öz-özlüyündə götür-qoy edirlər ki, bu da uşaqlarda sosial düşüncə və sosail-etik mədəni davranışlar formalaşdırır.

Məktəbə hazırlıq qruplarında 5-6 yaş dövründə uşaqlarda sosial təsəvvürlər məzmununa görə yeni mahiyyət daşıyır. Artıq bu zaman vətən, yaşlıların əmək işləri, təbiət, ictimai hadisələr, böyüklərlə ünsiyyət, peşələr və s. haqqında uşaqların təsəvvürləri xeyli genişlənir. Bu barədə **"Məktəbə hazırlığın təşkili qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər kabinetinin qərarı"nda uşaqların sosial hazırlığı haqqında konkret olaraq belə deyilir:** yüksək əxlaqi təsəvvürlərin və vətəndaşlıq hisslərinin (vətənpərvərlik, humanistlik, digər millətlərə hörmət) inkişafı; böyüklərlə və yaşıdları ilə ünsiyyətin qurulmasında yüksək mədəni davranış qaydalarının mənimsənilməsi; öz hərəkətlərində əxlaq normalarının rəhbər tutulması və onlara riayət olunması" (2) kimi tələblər qarşıya qoyulmuşdur.

Məktəbə hazırlıq mərhələsində uşaqların sosial-əxlaq tərbiyəsi nəticəsində onlarda yoldaşlıq və dostluq keyfiyyətləri yaranır, onlar üçün səy etmək, birgə sosial fəaliyyətdə olmaq, ümumi məqsəd üçün çalışmaq, ehtiyacı olana yardım göstərmək, əmək və oyun zamanı ilkin formada olsa da vəzifə, borc hissi formalaşır.

Məktəbə hazırlıq mərhələsində uşaqlarda Vətən məhəbbəti, müxtəlif millətlərin nümayəndələrinə hörmət get-gedə inkişaf edir, insanlara məhəbbət güclənir, incəsənət əsərlərinə maraq artır, ətraf mühitə münasibətdə müsbət irəliləyiş nəzərə çarpır.

Məktəbəqədər yaşlı uşaqlar böyüdükcə onların əxlaqi cəhətdən tərbiyələnməsi imkanı da artır və məzmunu nisbətən genişlənir. Bu dövrdə uşaqlar əqli emosional cəhətdən xeyli inkişaf etdiyi üçün onların davranış qaydalarına əməl etmələrinə, hərəkətlərindəki şüurluluğa və fəallığa daha çox diqqət yetirmək tələb olunur.

Məktəbə hazırlıq mərhələsində uşaqlar sosial davranış qaydalarını dərk edir və ictimai hadisələri öyrənməyə can atır. Təlim prosesində onlar daha geniş məlumata sahib olurlar. Uşaqlarda Vətən haqqında anlayış genişləndirilməli, xalqın həyatı və ictimai hadisələrə dair məlumatı çoxalmalıdır. Uşaqlara 44 günlük Qarabağ – Vətən müharibəsində qələbəmizi anlatmalı, işğaldan azad olmuş torpaqlarımızı bir daha tanıtmalı, şəhidlərimiz haqqında, döyüşçülərimiz haqqında, milli qəhrəmanlarımız haqqında, Qarabağda dalğalanan bayrağımız haqqında məlumatlar verilməlidir. Bütün bunların əsasında onlarda vətənpərvərlik, milli qürur və vətəndaşlıq hissi artır, dostluq, böyüklərə hörmət kimi sosial keyfiyyətlər əvvəlki illərə nisbətən məzmun daha da genişlənir, iradi keyfiyyətlər möhkəmləndirilir. İntizamlılıq, mütəşəkkil və müstəqillik daha da güclənir. Bunun əsasında uşaqlar hərəkətlərini sosial - əxlaqi motivlər üzərində qurmağa çalışırlar. Bu yaş dövründə uşaqlarda yaşlılara və yaşıdlarına yanaşma sahəsində yeni sosial keyfiyyətlərə yiyələnirlər. Bu da uşaqlarda inkişafın yeni mərhələsi ilə bağlıdır. Ona görə də tərbiyəçi və valideyn bu inkişaf xüsusiyyətlərini görməli, uşağa yüksək məsuliyyət hissi ilə yanaşmalı, onların inkişafına məqsədyönlü istiqamətdə köməklik etməlidirlər

Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq qruplarında uşaqların sosial- mənəvi mədəniyyəti şəxsiyyətin sosiallaşmasını təmin edir, onu həyatda cəmiyyətdə ictimai fayda verəcəyi fəaliyyətə hazırlaşdırma prosesidir. Çünki insanın zənginliyi onun həqiqi, obyektiv münasibətlərinin zənginliyindən asılıdır. Məhz, tərbiyə olunma sayəsində insan-

lara, əməyə, biliklərə, fəaliyyətə çoxcəhətli münasibətlər yaranır.

Məktəbə hazırlıq mərhələsində şəxsi təcrübənin qazanılmasında başlıca cəhət ictimai münasibətlərin şüurlu dərk olunmasından ibarətdir. Bu zaman uşaqlar özünəməxsus şəxsi tələbatının ödənilməsinə çalışır, ictimai münasibətlərlə şəxsi münasibətlərin qarşılıqlı əlaqədə baş verməsinə nail olurlar ki, bu da məktəb təlimində ən vacib amillərdən biridir. Həqiqi, düzgün verilmiş tərbiyə, mənəvi mədəniyyət uşağın özünə inamını, öz qüvvəsinə və istedadına inamını üzə çıxarır, bu da uşağın məktəb təliminə hazırlığında mühüm yer tutur. Uşaqlarda sosial-əxlaqi hisslər get-gedə sabitləşir. Onlar yoldaşlarına qayğı ilə yanaşır, böyüklərə hörmət edir. Bu zaman valideyn və tərbiyəçinin müsbət hisslərini formalaşdırmaq üçün apardığı tərbiyəvi tədbirlər öz səmərəsini verir. Bu yaşlı uşaqlar bağçada balacalara oyun zamanı kömək edir, sınmış oyuncağını düzəltməyə çalışır, qocalara, xəstələrə qayğı ilə yanaşır, xüsusən baba və nənəyə kömək etməkdən həzz alırlar, 5-6 yaşlı uşaqlar artıq öz hisslərini idarə etməyə çalışır, hisslərini şüura tabe etməyə səy göstərirlər.

Məktəbəqədər təhsil müəssisələrində məktəbə hazırlıq qruplarında uşaqların sosial-mənəvi tərbiyəsi istiqamətində müəyyən işlər aparılarkən onlarda yoldaşlıq və dostluq hissləri yaranır, birgə fəaliyyət göstərmək arzusu yaranır, ümumi məqsəd üçün çalışmaq, ehtiyacı olana yardım göstərmək, əmək və oyun zamanı ilkin formada olsa da vəzifə, borc hissləri formalaşır.

Məktəbə hazırlıq mərhələsində uşaqların getdikcə sosial əxlaqi cəhətdən tərbiyələnməsi imkanları daha da artır və sosiallaşmanın məzmunu getdikcə genişlənir. Bu dövrdə uşaqlar əqli və emosional cəhətdən xeyli inkişaf edir ki, bu zaman onların sosial davranış qaydalarına əməl etmələrinə, hərəkətlərindəki şüurluluq və fəallığa xüsusi diqqət yetirmək tələb olunur.

Uşaqlar məktəbə hazırlıq mərhələsində artıq düzgün davranış qaydalarını dərk edir və ictimai yerlərdə özünü düzgün aparır, böyüklərlə ünsiyyət və münasibətə girə bilir, təbiət və cəmiyyət hadisələrini bilir, müxtəlif, atalar sözləri, şeirlər, nağıllar bilir və daha da öyrənməyə can atır ki bu da mənəvi dəyərlərin mənimsənilməsində əhəmiyyətlidir. Prof. L.N. Qasımovanın dediyi kimi- ”Azərbaycan xalqına məxsus mənəvi dəyərlərin öyrənilməsində şifahi xalq yaradıcılığı nümunələri. çox qiymətli mənbələrdir” (3, 14).

Beləliklə deyə bilərik ki, məktəbəqədər yaş, məktəbə hazırlıq dövrü yalnız məktəb həyatına hazırlıq mərhələsi deyil, eyni zamanda insan həyatının ən məsuliyyətli, ən mühüm yaş dövrüdür ki, bu dövrdə insan sosial həyata hazırlanır, sosiallaşır və bu dövrdə bütün mənəvi- əxlaqi keyfiyyətlərin təməli qoyulur.

**Problemin aktuallığı.** Məktəbə hazırlıq qruplarında uşaqların sosiallaşması onların həyata hazırlanmasının əsasını təşkil edir. Sosiallaşmış uşaqlar məktəb təliminə də asanlıqla adaptasiya oluna bilirlər.

**Problemin yeniliyi.** Məktəbə hazırlıq qruplarında uşaqların sosiallaşması istiqamətində aparılan işlər onların mənəvi-əxlaq tərbiyəsində mühüm əhəmiyyət kəsb edir ki, bu mühüm bir məsələ müəllim və tərbiyəçilərimizin diqqət mərkəzində olmalıdır.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə toplanmış materiallardan müəllim və tərbiyəçilər, pedaqogika üzrə tədqiqatçılar dəyərli mənbə kimi istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Əliyev, İ.H. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı" (2007-2010 -cu illər) 12 aprel 2007-ci il tarixli Prezident sərəncamı // Xalq, -2007, 14 aprel

2. “Məktəbə hazırlığın təşkili qaydaları"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər kabinetinin qərarı. Bakı şəhəri, 8 yanvar, 2010-cu il / Cavadov İ., Cəfərova L.K., -Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, -2015.

3. Qasımova, L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən / L.N. Qasımova. -Bakı: Nurlan, -2004. -220 s.

**E-mail:** sabka567@gmail.com

**Rəyçilər:** *ped.ü. elm.dok., prof.* **L. Qasımova,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**

**Redaksiyaya daxil olub:** 11.06.2021